

*Aydın TAĞIYEV*

# İSPAN ÇƏKMƏSİ

## Hamı gözləyirdi ki, nəsə olacaq...

(romandan fəsillər)

**(əvvəli ötən saylarımızda)**

**"Bəziləri öz-özündən vaxtaşırı heç də qədərincə qorxmur"**

**Kventilman**

**"Noblese oblige" (fransızca) - "Vəzifə məcbur edir."**

Yüksək səlahiyyət, həm də böyük sərvət sahibi olan Əyyan elə öz kefinin də ağası idi. Qışda qışlaqlarda, yaydsa yaylaqlarda əyan-əşrəfi, qohum-qardaşı, məhrəm bildiyi adamları başına yığıb gen-bol ziyafətlər verməyi vardı.

Elə dünən də hökmdar belə bir məclis qurmuşdu və, əlbəttə, Şair də o məclisdə iştirak etmişdi.

***

Bütün gecəni oyaq qalmışdı. Gözlərindən yuxu tökülürdü. Gündüz boş-bekar olmasına baxmayaraq soyunub yatağına girsə də bir hovur da olsa çimir edə bilmədi. Gərək axşamı gözləyəydi.

...Gecədən xeyli keçsə də, rahat yorğan-döşəkdə yenə də yuxusu ərşə çəkilmişdi. Bu gecə də yuxu ondan qaçaq düşmüşdü. Gözləri gicişir, qulaqları uğuldayır, başı çatlayırdı. Yox, şəkər, təzyiq-filan işi deyildi.

Əyyanın təşkil etdiyi məclislərdən qayıdandan sonra hər dəfə belə hala düşürdü. Dəfələrlə özünü söyüb danlayır, öz-özünə and içib söz verirdi ki, Əyyanın öz kefinə vaxtsız-vədəsiz təşkil etdiyi belə məclislərindən uzaq qaçsın.

"Ay-hay!.."- Öz-özünə lağ etdi. Hələ ki, bu məmləkətdə Əyanın bir sözünü iki edən oğulu heç bir ana dünyaya gətirməyib. Tabeliyindəki təbəələrindən hansı birinə ölümə getməyi əmr etsə, həmin adam uf demədən, gözünü qırpmadan hökmə, buyruğa canla-başla əməl edər, qəbul edilən qərarı danışıqsız yerinə yetirərdi.

İndi gəl, onun dəvətindən imtina et, ağlabatan bir bəhanə tapıb məclisinə təşrif buyurma!

***

Məclis başlayanda təkcə onun yox, elə bil bütün əyan-əşrəfin ürəyinə dammışdı ki, nəsə olacaq... Hərçənd ki, o ılıq yay axşamı hökmdarın dəniz qırağındakı villasına toplaşan mötəbər qonaqlar bir-birindən xəbərsiz gəlmişdilər.

Lap şadlıq saraylarında keçirilən toylardakı kimi təyin edilən vaxtın tamamında qapılar açıldı və qonaqlar yemək zalına daxil oldular.

Şadlıq saraylarında yazılmamış bir qayda-qanun da var idi; məclisə dəvət olunanlar təkcə toya salacaqları pulun məbləğinin hesabına görə yox, hansı bölgələrdən olmaları, ictimai mövqeləri, tutduqları vəzifələri, qohum-qardaşları, kimlərlə qohumluqları, gələcək perspektivləri nəzərə alınmaqla məclis sahibinin göstərişi ilə zalda yerləşdirilərdi.

Ancaq burası da var idi ki, Əyanın məclisində bunlara ehtiyac olmazdı. Çünki dəvət olunanalar əvvəlcədən öz yerlərini bilənlər idi. Bir də görərdin ki, yaşlı bir vəzifə sahibi oturduğu kürsüdən qalxıb tabeliyindəkini az qala xahiş-minnətlə başa çəkib öz yerində əyləşdirərdi.

Bəzən də elə olurdu ki, Əyan öz həmişəki yerində oturmuş kiməsə:

- A bala , bəri keç, uzaqda durma! - deyə qabaq sıralarda yer göstərərdi.

Əyanın qəfil, gözlənilməz hərəkətləri çox olardı. Bir də görərdin ki, təcili bir zənglə bütün qohum-əqrəbanı, yaxın, məhrəm adamları bir yerə topladı. Gen-bol bir süfrə açdırdı.

Şairin iştirak etdiyi ötən axşamkı o məclisə də qonaqlar Əyanın qəfil bir dəvəti ilə toplaşmışdılar. Ad günü idimi? Ola bilməz, Əyanın məclisinə toplaşanlar nəinki əlahəzrətin özünün, onun zövcələrinin, varisin, digər oğlanlarının, qızlarının, hətta vəliəhabi nəvələrinin doğum günlərinin vaxtının, təqvimdəki bayram günlərinin tarixindən daha dəqiq bilirdilər.

***

...Gen-bol bir süfrə açılmışdı və qonaqlar da öz yerlərini tutub hökmdarı gözləyirdilər.

Əyan da adəti üzrə həmişə qonaqlarını intizarda saxlayıb yalnız özünə məxsus bir tərzdə şaqqanaq çəkə-çəkə məclisə təşrif buyurardı.

- Ha-ha-ha... bilirəm, bilirəm,- qoaqları yuxarıdan aşağı göxaltı süzüb dillənərdi hə, üzə vurmasanız da, ürəyinizdən keçənlərdən agaham. Fikirləşirsiniz ki, bu ziyafət də səbəbsiz-filansız deyil. Əyan bir anlığa susar, sonra da: - Ümumiyyətlə, dünyada səbəbsiz-filansız heç nə olmur. Guya ki, elə-belə bir iş görəndə, hərəkət edəndə də hərənin özündən xəbərsiz bir məqsədi olur...

- Kişinin ağzından dürr tökülür.

Yanaşı oturanlar bir-birlərinin qulaqlarına guya ki, pıçıldayırdılar, ancaq bu pıçıltı onlardan xeyli uzaqda, masanın baş tərəfindəki Əyanın qulağına da əlbəttə ki, gedib çatırdı.

Əyan məmnunluqla şaqqanaq çəkərdi.

- Ha-ha-ha... Sözümün canı bu deyil . Filosofluqla nə işim?!.. Mənim vəzifəm hökm etməkdi. Biləsiniz ki, mənim müftə-müsəlləm bugünki bu qonaqlığım da elə məqsədsizliyimdir...

**-II-**

Çənələr dəyirman kimi süfrənin üstündəkiləri üyütmüşdülər, gen-bol yemək qonaqları süstləşdirsə də,elə bil hamının ürəyinə dammışdı ki, nəsə olacaq...

Gecədən xeyli keçmişdi. Məclis isə davam edirdi və hökmdar da ağayana bir tonda qonaqlarına "gecəniz xeyirə qalsın" deyib özü dincəlməyə yollandı.

Xidmətçilər tox qonaqları bu dəfə eşiyə - əylənməyə dəvət etdilər. Süd rəngli işıq saçan lampalar ətrafı elə işıqlandırmışdı ki, sanki dan üzü yenicə açılırdı. Şəlalər, fəvvarələr, çarhovuzlar. Ağacların altından arx axırdı. Ağacların budaqlarından dəymiş meyvələr sallanırdı. Güllərin, çiçəklərin ətri - qoxusu adamı bihuş edirdi. Quşların cəh-cəhi laylay kimi şirin idi.

Cənnəti görüb gələn olmamışdı, oxuduqlarından cənnət ona tanış idi. O hesabla bura da əsl cənnət idi, cənnət!

Təsəllisi bu idi ki, bu dünyada bir kərə cənnətdə yaşayanlara, əlbəttə, adil, ədalətli Allah - tala çətin ki, bir də cənnət qismət eləsin...

Bu dünyada cəhənnəmi görənlərin isə əlbət, axirətdə qismətləri cənnət olar...

Hamı gözləyirdi ki, nəsə olacaq...

Qonaqların ürəyinə damdı ki, hökmdarın zooparkında yeni bir sürprizlə qarşılaşacaqlar.

Zooparkın bələdçisi xüsusi bir qrimdə ortaya çıxdı. Qonaqları salamladı. Məlumat verdi ki, bu zoopark da ovlanan heyvanların cəsədləri xüsusi mütəxəssislər tərəfindən dərmanlanaraq qurudulub müqəvvaya çevrilmişdir. Və bu müqəvvalar da sanki dipdiri heyvanlar idi. Bir növ onlar rorobot-müqəvvalar da adlandırmaq olar. Bələdçinin bu ətraflı məlumatından sonra zooparkla tanışlıq başlandı. Süd rəngli işıq saçan lampalar ətrafı elə işıqlandırmışdı ki, sanki dan üzü yenicə açılırdı.

Elə bil əsl cəngəllik idi.

**-III-**

...Tülkü toyuqlara dən səpirdi.

Hələ sən bir canavara bax! Qumral quzunun ipək tüklərini tumarlayırdı...

Məzəli idi. O boyda fili bir at qarışqası girinc etmişdi. Kirpi dili ilə ilanları sığallayırdı. Siçanlar quyruqlarını qaldırıb pişiklərə meydan oxuyurdular.

Ceyran qurbağa ilə dərdi - sər etmək istəyirdi, deyəsən, zalım ovçudan şikayətlənirdi, di gəl, qurbağa heç ona qulaq asana oxşamırdı...

**Qartallar sürünür, gürzələr qanad çalırdı..**
**Şir çaqqalın hüzurunda fağır-fağır quyruq bulayırdı...**

Heyran-heyran bütün bunlara tamaşa edən qonaqları birdən vahimə bürüdü. Elə bil yatmışdılar, qəfildən ayıldılar.

Qarğalar, birdən-birə susmuşdular. Kirpi qınına çəkilib yumurlanmışdı. İlan da fısıldayıb qıvrılıb qaldığı yerdən sürünə-sürünə uzaqlaşırdı.

Birdən pələng nəriltisi eşidildi. İçkinin təsiri bir anda yox oldu. Qonaqlar vahimələndilər. Ancaq özlərinə tez gəldilər. Demə, bu, audio səs imiş. Özü də səs çaqqalın qəfəsindən gəlirdi.

Hamı uğunub getdi. Bülbül cəh-cəh vururdu; cəh-cəh vuran o bülbül qarğa qiyafəsində idi.

Adamın tüklərini biz-biz edən qurd ulartısı eşidildi. Ancaq səs tülkünün qəfəsindən gəlirdi.

Sanki yuxulu kimi adamlar birdən oyandılar.

Gözləri qarşısında müqəvvalar silkinib cana gəlirdi. Şir elə şirə çevrilir, qurdun da gözlərindən qan damırdı. Tülki indi fağır-fağır quyruğunu bulayırdı.

Cana gəlmiş müqəvvalar qəzəblə öz qəfəslərindən çıxırdılar.

Əyan hələ ki, şirin yuxuda idi.

***

...Ürəklərinə damıbmış kimi hamı nəsə olacağını gözləyirdi.

...Səhərin açılmasına isə az qalırdı...

Şair heç kimlə xüdafizləşməyib sübhün alatoranında payi-piyada evinə tərəf yol aldı.

* * *

Şair yerinin içində nə qədər o tərəf bu bu tərəfə çevrildisə də, bu gecəni də yuxusuz qaldı.